*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 8 (9240) | 10 may 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Xüsusi buraxılış

# Molla Pənah Vaqif - 300




## Həyat və yaradıcılığı

**Molla Pənah Vaqif (1717-1797) - XVIII əsr Azərbaycan şairi, məşhur siyasi və ictimai xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri.**

Molla Pənah Vaqif Azərbaycan xalqının orta əsrlər ənənələri ruhunda və yeni tipli, realist, şifahi xalq poeziyasına yaxın şeirlər yazmış şairlərdəndir. Onun yaradıcılığı Azərbaycan poeziyasının gələcək inkişafına böyük təsir göstərmişdir.

Vaqif 1717-ci ildə Qazax yaxınlığındakı Salahlı kəndində anadan olmuşdur. Onun babası Süleyman, atası Mehdi, anası isə Ağqız adını daşımışlar.

Pənah yaxşı təhsil görmüşdü. O, fars və ərəb dillərində yaxşı danışır, astronomiya, riyaziyyat, musiqi və poetika üzrə geniş biliyə malik idi. O, Qazaxda tanınmış alim və pedoqoq Şəfi əfəndinin yanında oxumuşdu. Bəzi salnaməçilər belə hesab edirlər ki, sonrakı təhsilini Gəncədə və yaxud Təbrizdə alıb. Orası da məlumdur ki, Vaqif təhsilini başa vurduqdan sonra əvvəlcə Qazaxda, sonra isə Qarabağda məscid nəzdində fəaliyyət göstərən mədrəsədə dərs demiş və elə burada da Molla Pənah adını almışdır. Bu zaman onun alimliyi haqqında xəbərlər Molla Pənahın vətəninin hüdudlarından çox-çox uzaqlara yayılır. Hətta xalq arasında belə bir məsəl də yaranır: "Hər oxuyan Molla Pənah olmaz".

XVIII əsrin ortalarında Gürcüstan sərhəddində gərginlik yaranır və bir çox ailələr Qazaxdan Qarabağ və Gəncəyə köçürülürlər. Vaqifin ailəsi də köçkünlərin arasında idi. Bu ailə Qarabağın Tərtərbasar kəndində sığınacaq tapır. Vaqif burada da müəllimliklə məşğul olur. Qarabağa gəldikdən az sonra Vaqif Tərtərbasardan Şuşaya köçür. Burada məktəb açan şair tez bir zamanda şəhər sakinləri arasında həm gözəl müəllim, həm də istedadlı şair kimi tanınmağa başlayır. Şairin şöhrəti Qarabağ hakimi İbrahimxəlil xana çatır və onu saraya dəvət edirlər.

Vaqifin ömrünün son günlərinə qədər sarayda yaşaması məlumdur. O, əvvəlcə eşik ağası, yəni, daxili işlər naziri, daha sonra isə baş vəzir kimi fəaliyyət göstərib. Özünün yüksək savadı və elmi biliyi ilə o, burada da hamının rəğbətini qazanır.

Vaqifin zəngin kitabxanası vardı və o, daim öz biliklərini artırmaqla məşğul olurdu. Saray əyanları və şəhər ziyalıları içərisində seçilib-sayılması onun özünə ədəbi təxəllüs götürdüyü Vaqif ("hər şeyi bilən") adını doğrultduğunu göstərir.

Vaqif iki dəfə evlənib. Birinci xanımının adı Qızxanım, digərininki Mədinə olub. Qızxanım Durbənd bəyin qızı idi və gənc yaşlarında özündən çox-çox yaşlı olan Vaqifə ərə getmişdi. Xalq arasında onun qeyri-adi gözəlliyi barədə rəvayətlər dolaşırdı. Vaqifin bir oğlu, iki qızı olub. Onların hamısı Mədinə xanımdan olmuş uşaqlardır. Oğlunun adı Əliağa idi, "Alim" təxəllüsü ilə şeirlər yazmış və yetkin çağlarında qətlə yetirilmişdi.

Vaqif Molla Vəli Vidadi, Hüseyn xan Müştaq, Ağqız oğlu Piri kimi şairlərlə dostluq etmişdir. Onun ən yaxın dostu isə heç şübhəsiz, həmyerlisi və bəzi mənbələrə əsasən, uzaq qohumu Vidadi olub. Vaqif öz qızlarını Vidadinin oğlanlarına ərə vermişdir.

Qarabağ xanlığının vəziri vəzifəsində Vaqif özünü layiqli dövlət xadimi, müdrik və uzaqgörən bir siyasətçi kimi göstərə bilir. 1795-ci ildə Ağa Məhəmməd şahın qoşunları Araz çayını keçərək, Şuşa istiqamətində irəliləməyə başlayırlar. Şuşalılar Vaqifin başçılığı altında qalanı müdafiə edirlər. Şuşanın 33 günlük mühasirəsi qalanın müdafiəçilərini sarsıtmır və şah məcbur olub, mühasirəni dayandıraraq, Gürcüstana yola düşür.

Ağa Məhəmməd şah 1796-cı ildə yenidən Şuşaya hücuma keçir. Bu dəfə qala döyüşsüz təslim olur. Ağa Məhəmməd şah tapşırır ki, səhərisi gün Vaqifi edam etsinlər. Lakin həmin gecə İran şahı qətlə yetirilir. Sonra Qarabağ xanlığının başına İbrahimxəlil xanın yaxın qohumlarından olan Məhəmməd bəy Cavanşir keçir. O, hakimiyyətə keçən kimi M.P.Vaqifi və oğlu Əli bəyi edam etdirir.

Ölümündən sonra Vaqifin evi talan olunur, əlyazmaları yandırılır. Şairin şeirlər "Divan"ı da bu səbəbdən bizə gəlib çatmamışdır. İndi kitablarda nəşr olunan şeirlər isə şairin yaradıcılığının pərəstişkarları tərəfindən bircə-bircə toplanmışdır.

1856-cı ildə Teymurxanşurada Vaqifin ilk kitabı çap olunur. Sonra estafet Mirzə Fətəli Axundova keçir. O, çox zəngin bir material toplayaraq, məşhur şərqşünas Adolf Berjeyə verir. Berje isə bunları 1867-ci ildə Leypsiq şəhərində nəşr etdirir. Eyni zamanda Vaqifin irsi ilə Azərbaycan poeziyası nümunələrindən iri bir antologiya tərtib etmiş Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbov da maraqlanır. O öz əlyazmalarını dərc etdirməsə də, bir çox ədəbiyyatşünaslar həmin əsərə tez-tez istinad etmişlər. Nəhayət, inqilabdan qabaqkı dövrdə Vaqifin əsərlərinin son nəşri "Yeni həyat" qəzetinin redaktoru Haşım bəy Vəzirov tərəfindən həyata keçirilib. İnqilabdan sonrakı dövrdə Vaqifin əsərlərinin toplanması və nəşri sahəsində Salman Mümtazın böyük xidmətləri olub.

Vaqifin şerini ilk dəfə rus dilinə XIX əsrin 40-cı illərində polyak şairi və tərcüməçisi Tadeuş Zabloski tərcümə etmişdir.

Vaqif yaradıcılığı təkcə azərbaycanlılar arasında deyil, həm də gürcü və erməni mühitində məşhur olmuşdur. Məlumdur ki, uzun müddət Azərbaycan dili Qafqazda millətlərarası ünsiyyət vasitəsi olmuşdur və elə buna görə də, Vaqifin şeirləri yalnız Azərbaycan əlifbası ilə deyil, həm də gürcü və erməni əlifbaları ilə yazıya alınmışdır.

Vaqif şərq poeziyasının bütün klassik formalarından istifadə edib. O, qəzəl, təcnis, müxəmməs, müstəzad, müəşşərə, müşairə, məsnəvi və mərsiyələr yazıb. Ancaq onun yaradıcılığının böyük bir qismi, aşıq poeziyasından götürülmüş qoşma növündə yazılmış şeirlər təşkil edir.

## Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2017-ci ildə böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olur. Adının YUNESKO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürüdür.

Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

Vaqifin yaradıcılığı daim tədqiq obyektinə çevrilmiş, əsərləri kütləvi tirajla nəşr edilmiş və yubileyi keçirilmişdir. 1982-ci il yanvarın 14-də ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində şairin məzarı üzərində ucaldılmış əzəmətli məqbərənin açılışı olmuşdur. 1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini talayıb məhv etmiş, o cümlədən Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeylərini və Molla Pənah Vaqifin məqbərəsini dağıtmışlar.

Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 yanvar 2017-ci il*

## M.P.Vaqifin anadan olmasının 300 illiyi ilə əlaqədar yubiley mərasiminin keçirilməsi haqqında

### Qazax rayonu İcra Hakimiyyəti Başçısının Sərəncamı

Azərbaycan ədəbiyyatı tarixində və inkişafında Molla Pənah Vaqifin yaradıcılığının özünəməxsus yeri vardır. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, 1717-ci ildə doğulmuş M.P.Vaqifin anadan olmasının 300 ili tamam olur. Azərbaycan şairi M.P.Vaqifin 300 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2017-c il tarixli Sərəncamına uyğun olaraq

**QƏRARA ALIRAM:**

1. Yubileyin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın.

Təşkilat komitəsinin sədri:
**Rəcəb Babaşov** - Qazax rayonu İcra Hakimiyyətinin Başçısı
Təşkilat komitəsinin sədr müavini:
**Barat Vüsal** - Yazıçılar Birliyinin Qazax zona filialının sədri
Üzvlər:
**Gulaya Həsənova** - Qazax rayonu İcra Hakimiyyəti Başçısının müavini
**Asəf Bənnayev** - Qazax RİHB aparatında Memarlıq və tikinti şöbəsinin müdiri
**Məmməd Alıyev** - Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri
**Məhəmməd Orucov** - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı
**Sərdar Orucov** - İctimai-siyasi və humanitar məsələlər şöbəsində baş məsləhətçi
**Vüsət Əfəndiyev** - Bakı Dövlət Universitetinin Qazax filialının direktoru
**Valeh Vəliyev** - Ağstafa Regional Mədəniyyət və Turizm idarəsinin Qazax rayonu üzrə nümayəndəsi
**Vüqar Nəbiyev** - Qazax rayon Gənclər və İdman idarəsinin rəisi
**Nizaməddin Babanlı** - Qazax rayon Təhsil şöbəsinin müdiri
**Elşad Quliyev** - Qazax Dövlət Sosial İqtisad Kollecinin direktoru
**Elçin Məmmədov** - "Göyəzən" rayon qəzetinin baş redaktoru
**Məhruzə Hüseynova** - M.P.Vaqifin ev muzeyinin direktoru
**Solmaz Babanlı** - Mərkəzləşdirilmiş kitabxana sisteminin müdiri
**Osman Mustafayev** - RİHB-nın Yuxarı Salahlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi

2. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi V.P.Vaqifin 300 illik yubileyinin layiqincə keçirilməsi məqsədilə tərtib edilmiş Tədbirlər planı təsdiq edilsin. (Əlavə edilir)

3. Tədbirlər planında nəzərdə tutulmuş işlərin vaxtında və yüksək səviyyədə həyata keçirilməsi Təşkilat komitəsinə tapşırılsın.

4. Sərəncam "Göyəzən" rayon qəzetində dərc edilsin.

5. Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Rəcəb Babaşov**
**Qazax rayonu İcra Hakimiyyətinin Başçısı**

*31 mart 2017-ci il*

# Molla Pənah Vaqifin doğum günü qeyd olunmuşdur

**Bu il böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olur. Bununla əlaqədar Respublika Prezidenti İlham Əliyev 12 yanvar 2017-ci il tarixli sərəncam imzalamışdır. Görkəmli Azərbaycan şairinin doğulub boya-başa çatdığı Qazax rayonunda doğum gününün keçirilməsi ilə yubiley tədbirlərinə başlanılmışdır.**

Qazax rayon İcra Hakimiyyətinin Azərbaycan Yazıçılar Birliyinin Qazax zona filialı ilə birgə keçirdiyi tədbirdə idarə, müəssisə, təşkilat rəhbərləri, ziyalılar, ağsaqqallar, şairlər, poeziyasevərlər, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir.

Tədbir iştirakçıları ilk öncə M.P.Vaqifin və M.V.Vidadinin “Fəxri qazaxlılar” parkındakı qoşa heykəli önünə tər çiçək dəstələri qoyaraq dahi şairin əziz xatirəsini yad etmişlər.



Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək M.P.Vaqifin Azərbaycan ədəbiyyatının və tarixinin inkişafındakı xidmətlərindən, onun yaradıcılığından söz açmışdır. Bildirmişdir ki, sərəncamda deyildiyi kimi M.P.Vaqifin adının YUNESKO-nun “2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı”na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürüdür. Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək M.P.Vaqifin Azərbaycan dilinin inkişafındakı xidmətlərindən söz açmışdır. Qeyd etmişdir ki, Vaqif şərq poeziyasının bütün klassik formalarından istifadə etsə də, yaradıcılığında əsas yeri qoşma janrı tutmuş və o, heca vəznində Azərbaycan poeziyasının bir çox parlaq nümunələrini yaratmışdır.

Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsinin müdiri Ramiz Quliyev, M.P.Vaqif və M.V.Vidadinin xatirə muzeyinin direktoru Məhruzə Hüseynova, muzeyin bərpaçı-rəssamı Arzu Həsənova, şairin nəslinin davamçısı Vidadi Müftizadə, “Göyəzən” qəzetinin baş redaktoru Elçin İsmayıl və başqaları çıxış edərək görkəmli söz ustası M.P.Vaqif yaradıcılığından söz açmışlar.

Sonra şairlərdən Mustafa Rasimoğlu, Bahəddin Əsədoğlu, Məzahir Yaqub, Mübariz Qaragözlü, Səhlədar Hidayətoğlu, Elnur Süleyman, Mahmud Məsimoğlu öz şeirlərini oxumuşlar.

Sonda məktəblilərin ifasında Molla Pənah Vaqif şeirləri səsləndirilmişdir.

# Xalqın böyük şairi

**Prezident İlham Əliyevin böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında 12 yanvar 2017-ci il tarixli sərəncamı ictimai rəydə rəğbətlə qarşılanmış, ədəbi aləmdə xüsusi ovqat yaratmışdır. Azərbaycan xalqının böyük şairi, mütəfəkkiri və dövlət xadimi Molla Pənah Vaqifin üç yüz illiyinin bütün dünyada, xüsusilə vətəni müstəqil Azərbaycanda təntənə ilə qeyd olunması humanist, mütərəqqi tarixi şəxsiyyətə, onun ideyalarına, poeziyasının heç zaman öz təravətini itirməyəcək estetik təsir gücünə, sözün geniş mənasında “şirin dili”nə tükənməyən ehtiramdan, sevgidən, vurğunluqdan irəli gəlir. Azərbaycan ədəbiyyatı tarixşünaslığının yaradıcısı Firudin bəy Köçərli vaxtilə yazmışdı: “Onun (M.P.Vaqifin) şeir və qəzəliyyatı bizim Azərbaycan türklərinə ziyadə xoş gəlir və hər nə onun qələmindən zühura gəlibsə… tamamisi ürəkdən və həqiqi həyatdan nəşət edən əsərlərdir. Milli şairlərimizdən onun kimi sadə və açıq lisanda və ana dilimizin şivəsində şeir və qəzəl yazan az olub”.**




Onu da əlavə etmişdi ki: “Hərgah Vaqif və Vidadi kimi məşhur şairlər özgə millətlər arasında zühur etmiş olsaydılar, bişübhə indiyə kimi onların asar və əşarı dəfəat ilə çapdan çıxıb əbnayi-millət içərisində yayılmışdı. Onların qəbri üstündə nişangah qoyulmuşdu və vəfatlarının əlli və yüz sənəlik yubileyisi yomi alisi artıq cəlal və təntənə ilə yad olunmuşdu”.

Firudin bəy bu sözləri yazanda XX əsrin əvvəlləri idi. O zaman Azərbaycan xalqı öz dövlət müstəqilliyi uğrunda mübarizəyə yeni (ancaq bütün mənəvi-ideoloji enerjisilə) başlamışdı. Əslində, “milli şair”ə (və şairlərə) yubiley keçirilməsi, onların millətə daha kütləvi tanıdılması ehtiyacının meydana çıxması da milli oyanışın təbii təzahürü idi.

Akademik Həmid Araslı yazır: “Vaqif irsi hələ şair yaşadığı dövrdə nəzər-diqqəti cəlb etmişdir. Lakin Vaqif öldürüldüyü zaman evi talan edildiyindən, onun əsərləri də itib batmış və öz əlyazması bizə qədər gəlib çatmamışdır. Vaqifin əsərlərindən şeir maraqlılarının hafizələrində qalan, yaxud öz dəftərlərinə köçürmüş olduğu ayrı-ayrı qoşmalar saxlanılmışdır...”

Demək olar ki, bütün həyatını yeniyetməlik illərindən başlayaraq yazı- pozuya həsr etmiş insanın bir cümlə və ya misra yazısının qalmaması Molla Pənah Vaqif taleyinin, bəlkə də, ən böyük paradoksu idi. Lakin onun yaradıcılığını ürəkdən sevən, ictimai-siyasi fəaliyyətini, şəxsiyyətini yüksək dəyərləndirən xalq, bir tərəfdən, şairin qoşma, qəzəl, müxəmməs, müstəzad və müəşşərlərini uzun müddət yaddaşında saxlamış, xanəndələr məclislərdə ifa etmiş, həvəskarlar yazıya almış, digər tərəfdən, Qarabağın tarixini yazan ziyalılar öz əsərlərində Qarabağ xanlığının məşhur vəzirinin tərcümeyi-halının müxtəlif məqamlarına xüsusi diqqət vermişlər.

Vaqifin tərcümeyi-halını ilk dəfə bütün təfsilatı ilə tərtib etməyə çalışan Salman Mümtaz yazır: “Azərbaycan türklərinin saf bir özəyini təşkil edən kəndlilərdən ərseivücudə gəlmiş və bütün ellər tərəfindən “hər oxuyan Molla Pənah olmaz” ünvani-cəlilinə məzhər olmuş... Vaqif barəsində bizə dəyərli yardımda olan ərbabi-qələmin birincisi İbrahim xan Cavanşir vüzərasından həm də azərbaycanca yazdığı məşhur “Asari-Camal” adlı tarixi ilə qaranlıqda qalmış tariximizin bir hissəsini aydınladan Mirzə Camal, ikincisi erməni ədiblərindən, türk, fars və ərəb dillərinə bir əndazəyə qədər dara olan Mirzə Yusif Nersesov Qarabaği, üçüncü azərbaycanca “Qarabağnamə” tarixini yazan Mirzə Adıgözəl bəy olmuşdur. Əvvəlki ilə bu sonu müvərrix olduqlarından dolayı ancaq Vaqif ilə əlaqədar olan hadisəni müxtəsər qeyd edərək keçmişlər. Amma Mirzə Yusif isə Vaqifin icmalən farsca tərcümeyi-halını yazmaqla bərabər, bir neçə şeirlərini də bir araya toplamaqla ədəbiyyatımıza dəyərli xidmətdə olmuşdur. Bu çox dəyərli, qiymətli şairimizin adı Pənah, atasının adı Mehdi ağa, təxəllüsü də Vaqifdir. “Vaqif” kəlməsi iki mənanı - “xəbərdar” və “vəqf edən” havi olduğu üçün şair bu təxəllüsü qəbul edərək şeirlərində də işlətmişdir”.

Vaqifin həyatı, dövlət xadimi olaraq fəaliyyəti və yaradıcılığı haqqında Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir, Əhməd bəy Cavanşir, Mirzə Yusif Qarabaği (Nersesov), Mir Mehdi Xəzani, Rzaqulu bəy Mirzə Camal oğlu, Mirzə Rəhim Fəna kimi “Qarabağnamə” müəllifləri biri digərini çox hallarda təsdiq (hətta təkrar) edən, müəyyən məqamlarda isə fərqli məlumatlar vermişlər ki, həmin məlumatların hamısı vaqifşünaslıq üçün bu və ya digər dərəcədə əhəmiyyətlidir.

Vaqifin əsərlərini ilk dəfə Mirzə Yusif Qarabaği toplayıb 1856-cı ildə “Vaqif və müasirini-digər” kitabında nəşr etdirmişdir.

M.P.Vaqifin yaradıcılığına özünəməxsus realist ədəbi-estetik mövqedən yüksək qiymət verən Mirzə Fətəli Axundzadə şairin əsərlərini toplayaraq çap etdirmək istəsə də, nədənsə buna nail ola bilməmiş, lakin həmin materiallardan istifadə edən fransız mənşəli rus qafqazşünası Adolf Berje 1868-ci ildə Leypsiqdə əsasında Vaqifin şeirləri dayanan “Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə” adı ilə ayrıca kitab yayınlamışdır.

Mirzə Fətəli yazır: “Mən əyyami-səyahətimdə səfheyi-Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatını gördüm ki, zikr etdiyim şərti bir növlə onda gördüm”.

Məlum olduğu kimi, Hüseyn Əfəndi Qayıbov da Vaqifin əsərlərini məhz M.F.Axundzadənin məsləhətilə toplamış, lakin nəşr etdirə bilməmişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda milli özünüdərkin güclənməsi, miqyasca genişlənməsi və azərbaycançılıq ideologiyasının təşəkkülü M.P.Vaqifin yaradıcılığına marağı daha da artırmış, “Təzə həyat” qəzetinin müdiri Haşım bəy Vəzirov şairin əsərlərini 1908-ci ildə əvvəlki nəşrlər əsasında çap etdirmişdir.

Milli elmi-ictimai təfəkkürdə Vaqifə maraq nə qədər güclü olsa da, bizim qəti inamımıza görə, vaqifşünaslığın əsaslarını yaratmaq məhz görkəmli ədəbiyyatşünas Salman Mümtaza nəsib olmuşdur.

Salman Mümtazın “Azərbaycan ədəbiyyatı” seriyasından olan “Molla Pənah Vaqif” kitabçası (Bakı, “Kommunist” nəş., 1925), görünür, bu günə qədər vaqifşünaslığın şah əsəri olaraq qalmaqdadır.

Salman Mümtaz yazır: “Ərəbcə, farsca dərin bir məlumat və fövqəladə bir istedada malik olan bu nadir sima vəzir olduğu halda, yenə elə, xalqa yanaşmış və şeirlərini də tamamilə öz doğma ləhcəmizdə söyləmişdir. Cavanşir sarayı Vaqifi deyil, Vaqif sarayı mənimsəmiş və dilimizə, ədəbiyyatımıza da çox böyük xidmətlər göstərmişdir. “Lisani-rəsmi”si farsca olan İbrahim xan Cavanşir xanlığının rəsmi dili ilə daim mübarizədə olaraq o dilə və o ədəbiyyata öz əsrində fayiq gələn böyük Vaqifin şeirləri o qədər rəvan, sadə və o qədər şirindir ki, insan oxumaqla doymur, bütün kitabı birdən götürüb başına çəkmək və içmək istəyir. Vaqif tam mənası ilə el şairi olaraq, həm də mücəddəddir. Bu münasibətlə də nəzərimizdə Vaqifin qayət böyük dəyəri vardır”.

Və əlavə edir: “Məhəmməd bəy Cavanşir tərəfindən “evi tarac edilərkən “Divan” və yaxud “Divan”ları arada itib-batan bu nadirei-əsrin, bildiyimə görə, əldə olan şeirləri üç dəfə təb və nəşr edilmişdir. Birinci yol bu gözəl işə iqdamat edən Mirzə Yusif Qarabaği, ikinci dəfə Adolf Petroviç Berje, üçüncü kərə isə Haşım bəy Vəzirovdur. Qaraladığım bu sətirlər isə Vaqifin tərcümeyihalından Mirzə Yusif və Berje məcmuələrindən alınma parçalar istisna olmaq şərtilə min məşəqqət və əziyyətlərlə toplanılmış şeirlərdir ki, bu günə kimi heç bir yerdə təb və nəşr olmadığı kimi, Mirzə Yusif və Berje məcmuələrində də basılmamışdır. Bunları taparaq meydana çıxarmaq xoşbəxtliyi mənə müyəssər və nəsib olmuşdur ki, məndən ötrü çox böyük səadətdir”.

Salman Mümtaz Vaqifin əsərlərini 1937-ci ildə nəşr etdirir.

Vaqifşünaslıqda Salman Mümtazın tarixi xidmətinin fəlsəfəsi ondan ibarətdir ki, təzkirələrdə, “Qarabağnamə”lərdə, özünəqədərki araşdırmalarda M.P.Vaqif haqqında verilən məlumatları sistemləşdirib gələcək vaqifşünasların ixtiyarına verdi. Salman Mümtazdan sonra vaqifşünaslığın önündə akademik Həmid Araslı gedərək Salman Mümtazın yaratdığı məktəbi həm mükəmməlləşdirdi, həm də müasirləşdirdi.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutu M.P.Vaqifin əsərlərinin elmi nəşrini gerçəkləşdirdi. Onun müəllifi akademik Həmid Araslı idi.

Həmid Araslı yazır: “Vaqif geniş xalq kütləri içərisindən çıxıb, nəhayət dövlət xadimi kimi yüksəlməyə müvəffəq ola bilmiş, mütərəqqi şəxsiyyət olduğundan, sənətkarlıq qüdrətini və siyasətdəki bacarığını hər kəsdən əvvəl qiymətləndirən xalq “hər oxuyan Molla Pənah olmaz” zərb-məsəlini yaratmaqla, şairə qiymət vermişdir”.

Molla Pənah Vaqifin dövrünü, həyatını, dünyagörüşünü mümkün qədər təfsilatı ilə öyrənmək, təsəvvürdə canlandırmaq üçün istinad edilən əsas mənbələrdən birincisi müxtəlif elmi və ya elmi-kütləvi araşdırmalardırsa, ikincisi, şairin heç də bütün miqyası ilə bizə gəlib çatmamış və ya sona qədər toplanmamış yaradıcılığıdır.

Lakin əslində bu mənbələrdən hansının daha mötəbər olması üzərində mübahisə etmək də mümkündür. Çünki Vaqif öz tərcümeyi-halını həm yaratmış, həm də onun ən mühüm məqamlarını qələmə almış şair-mütəfəkkirdir. Əgər Vaqif haqqında təzkirələrdə, Qarabağ tarixinə dair əsərlərdə - “Qarabağnamə”lərdə bu və ya digər dərəcədə dəyərli məlumatlar olmasaydı belə onun həyat yolunu yaradıcılığı əsasında kifayət qədər aydın şəkildə təsəvvür etmək olardı. Təsadüfi deyil ki, böyük şəxsiyyətin başına gələn əhvalatlardan bəhs edən nəinki ədəbiyyatçılar, hətta tarixçilər də həmin əhvalatların məzmun-mündərəcəsini daha mükəmməl çatdırmaq üçün məhz ayrı-ayrı şeirlərinə müraciət etməli olmuşlar.

Görünür, böyük şair, mütəfəkkir və dövlət xadiminin ömür yolunu (ümumən şəxsiyyətini) öyrənərkən müraciət olunacaq üçüncü əsas mənbə Vaqifin obrazını yaratmış yazıçıların əsərləridir ki, buraya ilk növbədə Yusif Vəzir Çəmənzəminlinin “Qan içində” (və ya “İki od arasında”) romanı, Səməd Vurğunun “Vaqif” dramı, eləcə də bir sıra digər ədəbi yaradıcılıq məhsulları daxildir. Bu əsərlərdə bədii ümumiləşdirmə (və vüsət!) nə qədər yüksək olsa da, şairin, dövlət xadiminin tərcümeyi-halının mümkün qədər dəqiq əks etdirilməsinə çalışıldığı nəzərdən yayınmır.

Azərbaycan ədəbiyyatının, xüsusilə poeziyasının tarixində Vaqif məktəbinin ən böyük davamçısı olmaqla öz növbəsində yeni məktəb yaratmış şair-mütəfəkkir Səməd Vurğundur.

XVIII əsr sənətkarının yaradıcılıq şəxsiyyətində nə hikmət vardı ki, XX əsrin milli sosialist (kommunist) şair-mütəfəkkirini məftun etmişdi?

Səbəb yalnız o idimi ki, Səməd Vurğun da Vaqifin doğulduğu, sözün geniş mənasında təhsil alıb dünyagörüşünün formalaşdığı, böyük söz sənətkarı kimi püxtələşdiyi mahalda, etnoqrafik (hətta, belə demək mümkünsə, etnopoetik) məkanda dünyaya gəlmişdi?.. Əlbəttə, yalnız bu deyildi. Ancaq heç bir şübhə yoxdur ki, bu, çox mühüm, bəlkə də, əsas amil olmuşdur ki, XX əsrin şairi XVIII əsrdəki sələfinə bu qədər inamla, müəyyən məqamlarda təhtəlşüur bir məhəbbətlə istinad etsin.

Xalq, xüsusilə aşıq poeziyasının yaradıcılıq texnologiyalarını, demək olar ki, zədələmədən bir küll halında yazılı ədəbiyyata gətirmiş, onu bir mahalın estetik zövqü miqyasından çıxarıb bütövlükdə Azərbaycan türklərinin klassik bədii təfəkkürü səviyyəsinə yüksəltmiş, milli ruhu təzələmiş Vaqif şeirində yenilik (və millilik!) axtaran Səməd Vurğunu, təbii ki, gənc yaşlarından, özünə ustad-müəllim axtardığı ilk illərdən maraqlandırmış, hətta sehrləmişdi. XX əsrin 20-ci illərində, yeni yaradıcılığa başladığı dövrdə Səməd Vurğun Vaqifi sadəcə təqlid edirdisə, az sonra - 30-cu illərdə Vaqifə vurğunluq artıq, etnoqrafik emosionallığını itirmədən, dərk olunmuş, fəlsəfi-estetik məzmun qazanmış bir münasibət idi ki, bunun tarixi təzahürü bu günə qədər müasir Azərbaycan ədəbiyyatının ən möhtəşəm, populyar əsərlərindən biri sayılan “Vaqif” dramı oldu.

Necə ki Vaqif ruhən qidalandığı, pərvəriş tapdığı torpağın miqyasına sığmadı, Səməd Vurğun da o cür öz parlaq istedadını təqdim etmək üçün, tamamilə təbii olaraq, geniş üfüqlər axtardı. Ancaq nə Vaqif, nə də Səməd Vurğun doğulub böyüdükləri mahalın övladlığından heç zaman imtina etmədilər... Yəni yaradıcılıq üçün həmişə zəruri olan yeniliyi, özünəməxsusluğu o yerdə aradılar ki, milli bədii təfəkkür etnoqrafik yaddaşını (Vətəni) itirməsin.

“Səməd Vurğunun, nə qədər milli olsa da, sosialist (kommunist) bir şairin, yetişməsində Vaqifin hansı xüsusi xidmətləri ola bilərdi” sualı o qədər də yersiz və ya absurd deyil... Azərbaycanda patriarxal həyat tərzinin (dünyagörüşünün) xeyli təcavüzkarcasına və ya “hövsələsiz” olsa da, tamamilə haqlı olaraq, təqib edildiyi, aradan qaldırılmağa çalışıldığı (müqavimət göstərənlərin amansızcasına cəzalandırıldığı) bir dövrdə özünü həmin dövrün şairi elan etmiş Səməd Vurğun “feodal dünyagörüşlü” (həm də yerlisi olan) XVIII əsr şairini hansı məntiqlə (cəsarətlə!) özünə ustad seçmişdi?.. Nə üçün siyasi-ideoloji dedi-qoduların tüğyan eləməsinə bu qədər imkan vermişdi?..

Görünür, Səməd Vurğunun Vaqifə, mürəkkəb tarixi şəraitə baxmayaraq, bu cür “təhlükəli” bağlılığında, nə isə qaçılmaz, mistik məqamlar da yox deyildi. Hərdən “şairlər ordusu səf-səf düzlənsin, yoldaş Mayakovski komandan olsun” desə də, Səməd Vurğunun şair ruhunu canlandıran etnoqrafik köklərin təzahürü - “Vaqifin şirin dili” idi. Və o, yeni dövrdə yaşamasına, Azərbaycanda milli intibahın ən böyük nümayəndəsi olmasına baxmayaraq, bizə gəlib çatan əsərlərində bir dəfə də olsun nə “Azərbaycan”, nə “Azərbaycan (türk) xalqı”, nə də “Azərbaycan (türk) dili” anlayışlarını işlətməmiş şairin adını ana dilinin adı kimi təqdim etməkdən çəkinmirdi. Çünki onun üçün XVIII əsr şairinin xəlqi leksikonu, qrammatikası, üslubu və milli ruhu əsas idi.

XX əsrin əvvəllərində, hətta 30-cu illərdə də öz mövqeyini bu və ya digər dərəcədə qoruyub saxlayan, bir sıra hallarda yeni təzahürlərdə meydana çıxan poetik-ədəbi üslublar Səməd Vurğunu bir də ona görə qane etmirdi ki, ona doğma olan Vaqif üslubunu XIX əsrin ortalarından gələn bir axınla, faktiki olaraq, unutdurmuşdu. Bu axıncəhd mövzulara, ideyalara, qəhrəmanlara qədər təsir göstərmiş, “Azərbaycan sovet poeziyasının banisi”ni “bəs mənim ölkəmin varlığı hanı” sualını verməyə məcbur eləmişdi.

Səməd Vurğun sovet poeziyasında, ümumən ədəbiyyatında, əgər belə demək mümkünsə, Azərbaycan konyukturlarını ən yüksək səviyyədə reallaşdırmış bir sənətkar-ideoloq olmuşdur ki, bu özünü Vaqif yaradıcılığına münasibət məsələsində də göstərir... Heç şübhə etmirik ki, əgər Səməd Vurğunun Vaqifə elmi təhlilə çətin gələn bu cür intəhasız (bir sıra məqamlarda mistik) məhəbbəti olmasaydı, XVIII əsrin böyük şairi sovet dövründə bu qədər rahat qəbul oluna, bu qədər populyarlaşa bilməzdi. Məhz Səməd Vurğunun şəxsiyyəti, ideoloji-ədəbi nüfuzu inandırdı ki, Molla Pənah Vaqif də Nizami, Füzuli kimi bizim müasirimizdir. Ancaq, Allah tərəfi, bu cür “müasirliy”ə Vaqifin daha çox haqqı vardı... Hər şeydən əvvəl ona görə ki, o, ana dilində yazmışdı, həm də XX əsrdəki xələflərinin tamamilə anlayacağı, eyni zamanda ədəbi hadisə olaraq zövq alacağı bir dildə yazmışdı.

Səməd Vurğunun Vaqifə xüsusi önəm verməsi, bir tərəfdən, onun ruhundan doğulması ilə bağlı idisə, digər tərəfdən, ədəbi-estetik ideallarını təsdiq etməsilə əlaqədar idi. Yəni müxtəlif istiqamətlərdən tənqidə məruz qalan şair sübut etmək istəyir (demək olar ki, edirdi) ki, onun poetik üslubu kifayət qədər mötəbər köklərə malikdir ki, bunun da birincisi Vaqifin yaradıcılığıdır. O da təsadüfi deyildi ki, XX əsr şairini bəyənməyənlər, açıq və ya gizlin tənqid edənlər onun ustadına - XVIII əsr şairinə də hücum etməkdən çəkinmirdilər.

Səməd Vurğun dərindən bilirdi ki, sovet ədəbiyyatında Vaqifin yeri kifayət qədər paradoksal, ideya-estetik dərk baxımından xeyli dərəcədə ziddiyyətlidir... Belə ki, bir tərəfdən, bu böyük şairi xalq arasından çıxdığına, “yadelli işğalçılara” qarşı mübarizə apardığına, hətta Rusiya tərəfdarı olduğuna (“beynəlmiləlçiliyinə”) görə sovet ideologiyasına qəbul etdirmək o qədər də çətin deyil; digər tərəfdən isə, milli təfəkkürün (və dilin) hələ XVIII əsrdə meydana çıxmış bu möhtəşəm hadisəsi elə bir mükəmməl yaddaş (və tarix) təqdim edir ki, sabah və ya o biri gün sovet ideologiyası hər halda anlayacaq ki, bu təfəkkürün (və dilin) bugünkü daşıyıcılarını assimilyasiya etmək mümkün deyil, ona görə də Vaqifə (nəticə etibarilə, Səməd Vurğuna!) ideoloji hücumlar qaçılmazdır.

Moskva bütün əsərlərini farsca yazmış dahi Nizaminin Azərbaycan şairi olduğunu “rəsmi olaraq” təsdiq edəndə əsas məqsəd heç də mənasız mübahisələrə son qoymaq, şairi öz xalqına qaytarmaq deyildi. Sovet ideoloqları bilirdilər ki, Nizami fars dilini bilməyən Azərbaycan türklərində milli yaddaşın oyanmasına çox az təsir edə bilər. Eləcə də dili çətin olan dahi Füzuli... “Dədə Qorqud” eposunu, təbii ki, qadağan etmək lazımdır. Vaqiflə nə edək?.

Patriarxal bir şairi, kiçik bir xanlığın “eşik ağası” miqyasından kənara çıxartmadan gözləyək. O zamana qədər ki, “novatorluq” axtarışları öz kosmopolit liberallığı ilə nəinki Vaqifi, hətta Səməd Vurğunu da tarixin arxivinə göndərəcəkdir.

Ancaq belə olmadı... Vaqifin (və Səməd Vurğunun!) “şirin dili”, bütün maneələrə rəğmən, müasir Azərbaycan ədəbi dilini formalaşdırdı, müasir ədəbiyyatın, elmin, publisistikanın ifadə-ünsiyyət vasitəsinə çevirdi, tarixin qırılmağa hesablanmış bağları (xronologiyası) bərpa edildi.

Əgər Vaqif yüz ildən çox sürən tərəddüdlərdən, üslub texnologiyası axtarışlarından sonra öz Vurğununu yetişdirməsəydi (və Səməd Vurğun Vaqifi daxilindən gələn romantik bir ehtirasla bu qədər yüksəldib ictimailəşdirməsəydi), görünür, həmin “axtarışlar” bu gün də davam edəcəkdi.

Səməd Vurğun Vaqifi nə dərəcədə müasirləşdirdisə, Vaqif də Səməd Vurğunu o səviyyədə tarixiləşdirdi.

M.P.Vaqif öz-özlüyündə (təbiətən) istedadlı, müdrik olsa da, onun şəxsiyyəti, ümumiyyətlə, dövrün, mühitin tarixi reallığının məhsuludur ki, böyük şairin, dövlət xadiminin yaşadığı həmin dövr Azərbaycanda milli intibah dövrü, mühit isə milli intibah mühiti idi.

**Nizami CƏFƏROV,
AMEA-nın müxbir üzvü,
filologiya elmləri doktoru,
professor**

# Molla Pənah Vaqifin Muzey-Məqbərə kompleksi



**Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin inşasına memar A.V.Salamzadə və E.İ.Kanukovun layihəsi əsasında 1977-ci ildə başlanılmışdır. Kompleksin açılışı 1982-ci ilin yanvar ayında baş tutmuşdur. Kompleks Şuşa şəhərinin görkəmli yeri olan Cıdır düzünə yaxın bir ərazidə dahi şairin məzarı üstündə inşa edilmişdir. Burada M.P.Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid olan səksənə yaxın eksponat da sərgilənirdi.**

Kompleksin inşası dörd ilə yaxın davam etmiş və DQMV-nın erməni rəhbərliyinin hər hansı maneələrinə baxmayaraq yanvar ayının 14-də açılış mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan KP MK-nın birinci katibi, Sov.İKP MK-nın Siyasi bürosuna üzvlüyə namizəd Heydər Əliyev, Azərbaycanın tanınmış ədəbiyyat və mədəniyyət xadimləri iştirak etmişdilər.

Tədbirdə Heydər Əliyev geniş nitqlə çıxış etmiş bu mərasimin böyük əhəmiyyətindən danışmışdır. Mərasimdə xalq yazıçısı Mirzə İbrahimov və xalq şairi Süleyman Rüstəm, habelə Şuşa rayon Partiya Komitəsinin birinci katibi Niyaz Hacıyev və digər natiqlər çıxış etmişdilər.

Ermənistan Silahlı Qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən onlarca eksponat məhv edilmiş və aparılması mümkün olanları isə daşınmışdır.

# Molla Pənah olan şair

## Hər oxuyan Molla Pənah olmaz... El sözü



**Azərbaycan şeiri uzun əsrlər ərzində romantik üslubda və əruz vəznində yazılmışdır.**

XVIII əsrdə Molla Pənah Vaqif yazılı ədəbiyyatda Azərbaycan şeirinin Qurbanisi missiyasını həyata keçirmişdir. Molla Pənah Vaqif Azərbaycanda ədəbiyyatın inkişafında xüsusi mərhələyə çevrilmiş romanitk şeirdən realist tərənnümə qəti keçidin banisidir. Doğrudur, klassik Azərbaycan şeirində də realist notlar var idi. Molla Pənah Vaqifə qədər Nizami Gəncəvinin, Əfzələddin Xaqaninin, hətta Məhəmməd Füzulinin “seyli-sirişk içrə” nəfəs alan misraları, “var söz”ün ifadəsi olan gerçək düşüncələri də şeirdə görünmüşdü. İmadəddin Nəsiminin üsyankar səsində, “şeir bazarçısına” etirazlarında romantik yüksəkliklə birlikdə gerçəkçi bir baxış da öz əksini tapmışdır. XVII əsrdə Azərbaycan poeziyasındakı “hind üslubu” ədəbiyyatı saray həyatından çıxarmış, xalqa yaxın olan didaktik ideyaları şeirə gətirmişdir. Lakin bütün bunlar hələ də romantik örpəyin yalnız xalları qədər idi və klassik lirikanın ictimai ruhu miqyasından uzağa gedə bilmirdi. Molla Pənah Vaqif çoxəsrlik Azərbaycan şeirində ilk dəfə olaraq “qəzəli-aşiqanə”dən imtina edib, realist cizgilərə əsaslanan yeni tipli məhəbbət şeirləri yaratmışdır. XX əsrin əvvəllərinə aid edilən yeni şeir əsasən satirik poeziyaya aid idi. Satirik şeir realist poeziyanın inkişafının yeni səviyyəsi, yaxud təzə mərhələsi idi. Bu tipli şeir lirika deyil, satira olduğu üçün yeni adlandırılırdı. Əslində isə Azərbaycan ədəbiyyatında lirika istiqamətində yeni şeir Molla Pənah Vaqifdən başlanmışdır. Molla Pənah Vaqifin şeirləri klassik Azərbaycan şeirindən forma etibarilə və məzmunca fərqlənirdi. Bu, xalq-aşıq şeiri üstündə köklənmiş, el-oba həyatını və gözəlləri gerçək şəkildə tərənnüm edən yeni şeir idi.

Xalq həyatının təsviri Vaqifin şeiri üçün əsas idi. Təsadüfi deyildir ki, Vaqifi xalq nəğməkarı adlandırırlar. Molla Pənah Vaqif sadə, təbii el gözəllərini onların “ənniyi-kirşanı” və mühiti ilə birlikdə tərənnüm edir. Şairin gözəllərə və gözəlliyə realist münasibəti vardır. Molla Pənah Vaqifin şeir dili canlı, koloritli xalq dili idi. Ərəb-fars sözləri və tərkibləri ilə “bəzənmiş” klassik lirikadan fərqli olaraq, Molla Pənah Vaqifin şeirlərində doğma ana dili kəskin surətdə üstünlük qazanmışdır. Xalq şairi Səməd Vurğun haqlı olaraq şairin bədii dilinin özünəməxsusluğunu “Vaqifin şirin dili” adlandırmışdır. Molla Pənah Vaqifin şeir dili - Azərbaycan dilinin sadəliyini, xəlqiliyini, incəliyini, gözəlliyini və zənginliyini dolğun şəkildə əks etdirir. Vaqifin şeirlərində Azərbaycan dilinin geniş poetik imkanları canlı şəkildə yaşayır. Bu, geniş mənada ədəbiyyatın dilində islahatlar aparmaq demək idi. Çünki klassik Azərbaycan ədəbiyyatında möhkəm yer tutan əruz vəzninin qəlibləri xalqın canlı danışıq dilindən istifadənin genişləndirilməsinə imkan vermirdi. Molla Pənah Vaqifin islahatları sayəsində əruz vəznində yaradılmış qəzəl-qəsidə ədəbiyyatının yerində sadə, canlı və aydın dildə, heca vəznində yazılmış qoşma-gəraylı şeirləri aparıcı istiqamətə çevrilmişdir. Yeni tipli bu ədəbiyyatda ümumiyyətlə dövran və məhəbbət deyil, konkret olaraq zaman, məkan, insan və sevgi öz əksini tapmışdır. Molla Pənah Vaqif şeirlərində geniş mənada xalq həyatından böyük ilhamla və xalqın özünün danışdığı dildə söz açır.

Molla Pənah Vaqif - Azərbaycan yazılı ədəbiyyatında heca vəznli şeirin yaradıcısıdır.

Vaqif - xalq həyatının böyük nəğməkarıdır.

Vaqif - Azərbaycan mövzusunu şeirin əsas mövzusuna çevirmişdir.

Vaqif - Azərbaycan ədəbi dilinin banisidir.

Vaqif - erkən yeni dövr Azərbaycan realist ədəbiyyatının əsasını qoymuşdur.

Böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə “Nəzm və nəsr” adlı məqaləsində Molla Pənah Vaqifi “nadir vücuda gələn”, “xəyalatında (təsvirlərində - İ.H.) təsir olan”, şeirdə yeni yol açan (rəhnüma) şair kimi yüksək qiymətləndirmişdir. O, ədəbiyyatda realist şeirin meydana gətirilməsində Molla Pənah Vaqifin “müqəddəm” (irəlidə gedən - İ.H.) şair olduğunu da xüsusi olaraq nəzərə çarpdırmışdır: “...Mən əyyami-səyahətimdə səfheyi-Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatını gördüm ki, zikr etdiyim sərt (istər-istəməz ziyadə ləzzətə (dada, tama) və fərəhdə ziyadə təsirə bais olmaq - İ.H.) bir növ onda göründü. Mənim əqidəmə görə türk arasında şairi-münhəsirdir (şairliyə aiddir - İ.H.). ...Molla Pənah müqəddəm (əvvəl, irəlidə gedən) ərsəyə gəlib bu fənndə, rəhnümadır” (yol açandır, bələdçidir - İ.H.).

Beləliklə, Vaqif ədəbiyyatda yeni yol açdığına, şeirə yenilik gətirdiyinə, insana təsir edə bilən əsərlər yazdığına görə Molla Pənah olmuşdur. Şairin təxəllüs kimi qəbul etdiyi Vaqif sözünün lüğəti mənası da “xəbərdar olan”, “baş çıxaran” mətləblərini ifadə edir. Böyük şair özündən əvvəlki zəngin ədəbi ənənələrdən dərindən xəbərdar olmuş, lakin yeni tarixi şəraitdə ədəbiyyatı inkişaf etdirməkdən baş çıxara bilmiş, şeirdə təzə yol açmağı bacarmışdır. Şeirin təzə yolu isə - gerçəkliyi əks etdirən, xəyalatında həyatın dadı, tamı, reallıqları ifadə olunan poetik nümunələr yaratmaqdan ibarət idi. Molla Pənah ədəbiyyatın yeni inkişafına yol açan vəzifələrin həyata keçirilməsinə nail ola bilmiş, Vaqif mərtəbəsinə yüksəlmişdir. O, Azərbaycan ədəbiyyatı tarixinə realist şeirin banisi kimi daxil olmuşdur.

Molla Pənah Vaqifin xalq ruhunda yazılmış şeirləri sözün obrazlı mənasında həyatın bənzərsiz “tamaşası” təəssüratı yaradır. Görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin yazdığı kimi, “Molla Pənah milli şair olduğuna binaən hər nə onun qələmindən zühura gəlibsə, tamamisi ürəkdən və həqiqi həyatdan nəşət edən əsərlərdir. Onlarda öz müasirlərinin ayini-adatı, adabü-əxlaqı və dolanmaları artıq məharət ilə rişteyi-nəzmə çəkilibdir”. Doğrudan da Vaqifin şeirlərində yaşadığı dövrün təkcə real mənzərəsi yox, nəbzi, ruhu əks etdirilmişdir. Onun tərənnüm etdiyi gözəllər şair xəyalının obrazları olmayıb, həyatda mövcud olan “ellər yaraşığı, ölkə gözəli”nin həqiqi və təbii obrazlı ifadəsindən ibarətdir. Vaqifin şeirləri təsvir etdiyi gözəllər kimi, bədii ifadə vasitələri ilə də yenidir. Şairin yanağı laleyibaharı kimi, ləbləri yaqutun kənarı kimi, bir dənə nasüftə mirvari kimi, zülfü ya bənəfşə, ya səmən kimi ilhamla vəsf etdiyi Azərbaycan gözəli həm də ağıllı-kamallı, “işarə anlayıb, hal biləndir”:

Tavus kimi cilvələnə hər səhər,
Bəzək verə camalına sərbəsər.
Dindirməmiş verə könüldən xəbər,
İşarə anlayıb, hal bilən gərək.

Molla Pənah Vaqifin şeirlərində tərənnüm edilən “gərdəni minadan”, “ağ əlləri əlvan hənadan”, “şəkər gülüşlü”, “sinə meydan, zülf pərişan, bel nazik”, “ənniksiz-kirşansız”, “ellər yaraşığı - ölkə gözəli” olan Azərbaycan gözəli ədəbiyyatımızda yeni bədii obraz idi. Vaqifin Azərbaycan gözəllərinə aid etdiyi “yaşılbaş sona” obrazı gözəlliyin ümumiləşmiş bədii ifadəsidir. Vaqif “yaşılbaş sona”nı “əcəb seyrəngahı” olan Azərbaycan milli-mənəvi varlığının əsas siması kimi tərənnüm etmişdir. Bu, böyük Füzulinin “qönçə ağızlı, sərv boylu, səməni üzlü” gözəlindən fərqli olan, real həyatdan gələn, xalq düşüncəsi ilə təsvir edilən gözəlliyin ümumiləşmiş bədii obrazı idi.

Vaqifin çox vaxt ümumiləşmiş şəkildə “gəlin”, yaxud “şamama” adlandırdığı bu gözəldə Azərbaycan qızlarının bütün özünəməxsusluqları, gözəlliyi və dərin mənəviyyatı tam yeni bədii vasitələrlə canlandırılmışdır: maral baxışlı, saçları “iki dəstə bənövşətək”, “yasəmən qoxulu”, “nazik əllərində ənnabı həna”, “sözləri qənd, ağızları piyala”, “yanağı lalədən ziyadə göyçək”. Həm də ən başlıcası “həyası üzündə, əqli başında!” Və həm də “Vilayət içində həm adlı-sanlı!”; “Bir nazik kamallı, bir nazik işli!” Vaqif bu qənaətdə idi ki, “lalə zənəxdanlı, qönçə dodaqlı” gözəllərdə “adamlıq əsası” olmazsa, onlar “könül aşınası” deyildirlərsə, onda şeir rübabı “hayıf ki, yoxdur” nidası ilə narahat həyəcanları ifadə etməlidir. Budur Molla Pənahı Vaqif mərtəbəsinə çatdıran, yaxud Vaqifi Molla Pənah edən yeni ədəbiyyat! Molla Pənah Vaqifin ədəbiyyata təqdim etdiyi bədii obrazın zahiri gözəlliyi kimi mənəvi keyfiyyətləri də Azərbaycan gerçəkliyinin təzahürüdür. Vaqifin şeirlərində konkret coğrafiyası - seyəngahı Kür qırağı, qış günü qışlağı Qıraqbasan olan, milli ailə mühitində çox işlədilən Pəri, Zeynəb, Fatimə və Yetər kimi adları, yalnız mənsub olduğu xalqa məxsus gözəllik anlayışı ilə tərənnüm edilən Azərbaycan gözəli XVIII əsrdə milli ədəbiyyata gələn “bir təzə çəmənli, həm gülüstanlı” tamam yeni obrazdır.

Məhz Molla Pənah Vaqifin şeirlərində Azərbaycan gerçəkliyi və insanı bütün reallıqları ilə fərqli bədii vasitələrlə milli ədəbiyyatın ruhunda ifadə olunmuşdur.

Molla Pənah Vaqif Azərbaycan həyatının gözəlləri və gözəllikləri ilə yanaşı, çətinliklərini, ağır güzəranını təsvir edəndə də milli məişətin reallıqlarını ifadə edir.

“Bayram oldu” şeiri - Azərbaycan şeirinin milli məişəti əks etdirən realist düşüncəsinin obrazlı bədii ifadəsidir. “Bayram oldu” şeiri - Molla Pənah Vaqifin həyata dərin və hərtərəfli baxışlarını, vətəndaşlıq ruhunu qabarıq şəkildə əks etdirir. “Bayram oldu” şeiri - Azərbaycan həyatının və azərbaycanlı güzəranının şeir dili ilə ifadə olunan təbii əks-sədasıdır:

***Bayram oldu, heç bilmirəm neyləyim,***
***Bizim evdə dolu çuval da yoxdur.***
***Düyi ilə yağ hamı çoxdan tükənmiş,***
***Ət heç ələ düşməz, motal da yoxdur.***
***Allaha bizmişik naşükür bəndə,***
***Bir söz desəm, dəxi qoymazlar kəndə.***
***Xalq batıb noğula, şəkərə, qəndə,***
***Bizim evdə axta zoğal da yoxdur.***

Molla Pənah Vaqifin “Hayıf ki, yoxdur” şeiri şairin yaradıcılığındakı nikbin ruhun təzadlı məqamlarını meydana qoyur. Şeirdəki “Kür qırağı” yer adı Azərbaycan

ədəbiyyatında yeni doğulan ölkə coğrafiyası anlayışının parlaq nümunəsidir. Həm də “Kür qırağı” adlandırıla biləcək bu şeir “əcəb seyrəngahı”, “qış günü qışlağı”, “gözəl obası”, “adamlıq ədası” cümlə-cahana örnək olan vətən torpağı idealının tərənnümünə həsr olunmuş bənzərsiz poetik nümunəsidir. Şeirdəki “hayıf ki, yoxdur” ifadəsi dərin mənası və məntiqi ilə “niyə də olmasın ki”, yaxud “olmalıdır” kimi başa düşülməlidir. Bu, Kür qırağının timsalında bütövlükdə Azərbaycan ölkəsi haqqında yazılmış dərin mənalı şeirdir. “Kür qırağı” şeirində bir xeyli dərəcədə mövcud halındakı vəziyyətdən təəssüf hissi keçirsə də, bütövlükdə bu şeir Vaqifin “cümlə cahanın” gözü olan eli-obası ilə, doğma yurdunun “havasının, torpağının, yerinin” misilsizliyi ilə iftixar duyğusu ilə yaşadığını mənalandırır. “Kür qırağı” adlandırılmasına baxmayaraq, bu şeir Azərbaycan ədəbiyyatında şairin açıq ünvanla öz ölkəsinə həsr etdiyi nadir şeirlərdən biridir. Nizami Gəncəvinin “Bərdənin tərifi” kimi klassik ədəbiyyatda konkret ünvanı göstərilən poetik nümunələr çox deyildir. Orta əsrlər Azərbaycan ədəbiyyatında vətən anlayışı “şəbi-hicran” şeirlərinin ruhunda, mahiyyətində yaşamışdır. Vaqifin “Kür qırağı” şeiri Azərbaycan coğrafiyasının bənzərsiz poetik tərcümanı olan qiymətli lirika nümunəsidir. “Hayıf ki, yoxdur” mətləbi Vaqifin nikbin realizminin ağrılı çalarlarının bədii ifadəsidir.

Molla Pənah Vaqifin məşhur “Durnalar” qoşması Azərbaycan ədəbiyyatında bu mövzuda yazılmış ilk və ən yaxşı şeirdir. Vaqifin “Durnalar”ı Azərbaycan şeirinin durna qatarının önündədir.

Fikrimizcə, təkcə ömrünün son anlarında yazdığı üçün yox, özünün mühüm ideya-bədii xüsusiyyətləri və dərin ictimai məzmunu etibarilə “Görmədim” müxəmməsi Molla Pənah Vaqifin yaradıcılığının zirvəsidir. Bu, “Bayram oldu” şeiri ilə başlanan, “Hayıf ki, yoxdur”la inkişaf etdirilən Vaqif realizminin kulminasiya nöqtəsidir.

Vaqifin “Görmədim” müxəmməsi XVIII əsr Azərbaycan şeirinin dövrə, zamana haray səsi, sərt ittihamnaməsidir. Bu, zamanı silkələyə bilən nadir şeir nümunəsidir:

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.

Zəngin və bənzərsiz yaradıcılığı, məşhur “Görmədim” müxəmməsi və “lütfü-kəramət” səyləri Vaqifi ucaldaraq Molla Pənah dərgahına çatdırmışdır.

Molla Pənah Vaqifin zəngin yaradıcılığı Mirzə Fətəli Axundzadənin “Təmsilat”ına, Cəlil Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları”na, Mirzə Ələkbər Sabirin “Hophopnamə”sinə, Səməd Vurğunun lirikasına gedən məsuliyyətli yolun böyük başlanğıcıdır. Azərbaycan milli-mənəvi varlığını, “ellər yaraşığı, ölkə gözəli”ni, Kür qırağı obasını ədəbiyyatın əsas mövzusuna çevirmiş Molla Pənah Vaqifin yaradıcılığı azərbaycançılığın ən mühüm qaynaqlarından, mənbələrindən biridir.

“Ədəbiyyatımızın tarixi inkişaf yoluna nəzər salarkən Azərbaycan realizminin beşiyi başında hamıdan əvvəl ...Vaqifin silueti görünür... Yazılı və şifahi xalq poeziyası arasındakı ənənəvi səddi dağıtmaq, ...milli, dünyəvi, nikbin bir şeirin tam qələbəsini təmin etmək mənasında Vaqifin tarixi-ədəbi xidməti misilsizdir. Vaqif şeiri bu mənada Zakirlə birlikdə Axundzadə realizminin həndəvərini, astanasını təşkil edir... Odur ki, biz Vaqif poeziyasını realizmə hazırlıq dövrü kimi “predrealizm”, “erkən realizm”, “ilkin realizm” kimi saxlamağı mümkün hesab edirik...”.

Molla Pənah Vaqif Məhəmməd Füzulidən sonrakı və Mirzə Fətəli Axundzadədən əvvəlki dövr Azərbaycan realizminin yaradıcısıdır.

Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatında heca vəznli şeir məktəbi yaratmışdır. Böyük sənətkarın adı ilə bağlı olan şeir-sənət ənənələri yaşamış, ədəbiyyatımızın sonrakı inkişaf mərhələlərində yaradıcılıqla davam etdirilmişdir. Azərbaycan ədəbiyyatında heca vəznli xalq şeiri üslubunun möhkəmlənib aparıcı mövqe tutmasında Molla Pənah Vaqifin mühüm rolu olmuşdur. Onun adı və sənəti həmişə uca tutulmuş, yüksək ehtiramla yad olunmuşdur. Xalq şairi Səməd Vurğunun məşhur “Vaqif” tarixi dramı (1938) və Yusif Vəzir Çəmənzəminlinin “İki od arasında” (1937) romanı qüdrətli sənətkara bəslənilən ümumxalq ehtiramına Azərbaycan ədəbiyyatında ucaldılmış möhtəşəm abidələrdir. Bəstəkar Ramiz Mustafayevin “Vaqif” operası (1960) böyük söz ustadının həyat və sənət ideallarını xalqımıza çatdırmağa uğurla xidmət edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1982-ci ildə Azərbaycanın qədim Şuşa şəhərində Molla Pənah Vaqifə ucaltdığı böyük məqbərə bu ölməz sənətkarın ədəbiyyatımızın inkişafı sahəsindəki xidmətlərinə və ictimai-siyasi fəaliyyətinə dövlət səviyyəsində verilmiş yüksək qiymətin parlaq ifadəsidir. Ermənistan silahlı birləşmələrinin Dağlıq Qarabağı işğal edərkən Vaqifin məqbərəsini dağıtması bu təcavüzkar ölkənin mədəniyyətdən uzaq olan mənəviyyatsız simasını əks etdirir. Görkəmli Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin anadan olmasının 300 illik yubileyinin doğma ölkəsi ilə birlikdə UNESCO və TÜRKSOY miqyasında beynəlxalq səviyyədə qeyd olunması böyük ümummilli və bəşəri ideallara xidmət edən böyük sənətin təntənəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında”kı 12 yanvar 2017-ci il tarixli sərəncamı müstəqil dövlətimizdə sənətə və sənətkara bəslənilən əbədi ehtiramın parlaq və əməli nümunəsidir. Dövlət sərəncamında öz əksini tapmış aşağıdakı sözlər Molla Pənah Vaqifin ölməz sənətinin yüksək qiymətini ifadə etməklə bərabər, qarşıda duran mühüm vəzifələri də nəzərə çarpdırır: “Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır... Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir.

...Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir”.

Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin yubileyi Azərbaycan xalqının ölməz ədəbi-tarixi ənənələrinə dönməz sədaqətinin və ümummilli iftixar hissinin daha bir əməli təzahürüdür. Bu, həm də Vaqifin simasında xalqı və vətəni ilə daim bir olan, ümummilli ideallara sədaqətlə xidmət edən sənətkarların hər zaman Molla Pənah səviyyəsində qiymətləndirilməsinin əyani sübutudur.

**İsa HƏBİBBƏYLİ,**
**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik**

# Tədbirlər planı hazırlanmışdır

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov M.P.Vaqifin anadan olmasının 300 illiyi ilə əlaqədar yubiley mərasiminin keçirilməsi haqqında 31 mart 2017-ci il tarixli sərəncam imzalamışdır. 9-21/37 nömrəli sərəncama əsasən tədbirlər planı hazırlanmışdır.

Tədbirlər planında yubiley münasibətilə rayonun təhsil, mədəniyyət müəssisələrində M.P.Vaqifin həyat və yaradıcılığına həsr olunmuş elmi-praktik konfransların keçirilməsi qeyd edilmişdir.

Rayon ziyalıları, tələbələri və məktəbliləri arasında M.P.Vaqifin yaradıcılığına həsr olunmuş inşa yazı müsabiqəsinin keçirilməsi tövsiyə olunmuşdur.

M.P.Vaqifin 300 illik yubileyi ilə əlaqədar idman turnirlərinin keçirilməsi, M.P.Vaqifin dram əsərlərindən parçaların hazırlanıb rayon ictimaiyyətinə nümayiş etdirilməsi tapşırılmışdır.

Tədbirlər planında ədibin 300 illik yubileyi ilə əlaqədar “Göyəzən” rayon qəzetinin xüsusi buraxılışının çap olunması, M.P.Vaqiflə bağlı xatirələrin toplanaraq video-lentə alınması və ictimaiyyətə təqdim olunması vurğulanmışdır.

Yubiley mərasimi ilə əlaqədar keçirilmiş müsabiqə qaliblərinin mükafatlandırılması, ədibin adını daşıyan ev muzeyinin yeni materiallarla zənginləşdirilməsi, M.P.Vaqifin anadan olmasının 300 illik yubileyi münasibətilə qonaqların dəvət olunması və təntənəli yubiley mərasiminin keçirilməsi də qeyd olunmuşdur.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**“GÖYƏZƏN”**

# Ankarada “Molla Pənah Vaqif ili”nin açılış mərasimi keçirilmişdir

**Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən XVIII əsr Azərbaycan poeziyasının parlaq siması, görkəmli şairi, məşhur siyasi və dövlət xadimi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi münasibətilə 2017-ci ilin “Molla Pənah Vaqif ili” elan edilməsi münasibətilə anma mərasimi təşkil olunmuşdur.**

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının, Azərbaycanın və Türkiyənin Mədəniyyət və Turizm nazirliklərinin, Azərbaycan Milli Kitabxanasının, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə TÜRKSOY-un qərargahında keçirilən mərasimdə rəsmi şəxslər, diplomatlar, Ankara ictimaiyyətinin tanınmış nümayəndələri, elm və mədəniyyət xadimləri, şeirsevərlər və digər şəxslər iştirak etmişlər.

Əvvəlcə Azərbaycanın TÜRKSOY-dakı rəsmi təmsilçisi Elçin Qafarlı “Molla Pənah Vaqif ili” və bu münasibətlə təşkil olunan mərasimlər barədə məlumat vermişdir.

TRT-nin Ankara radiosu Xorunun ifasında Vaqifin “Durnalar” şeirinə bəstələnmiş mahnı səsləndirildikdən sonra Azərbaycan Milli Kitabxanasının arxiv fondunda saxlanılan M.P.Vaqifin, onun haqqında yazılmış, başqa dillərə tərcümə olunmuş əsərlərdən ibarət serginin açılışı olmuşdur.

Rəsmi açılış mərasimində TÜRKSOY-un baş katibi Düsen Kaseinov, mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev, Azərbaycanın Ankaradakı səfiri Faiq Bağırov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva və Türkiyənin Mədəniyyət və Turizm nazirinin müavini Nihat Gül çıxış etmişlər.

Çıxışlarda böyük şair Molla Pənah Vaqifin poeziya yaradıcılığı, onun diplomatik səyləri, dövlət işlərindəki uğurları və digər məqamlardan bəhs olunmuşdur. TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirən çıxışçılar əminliklə ifadə etmişlər ki, türk xalqlarının tarixi şəxsiyyətlərinin, o cümlədən görkəmli ədiblərin həyat və fəaliyyətinin tanıdılmasına göstərilən diqqət türkdilli xalqları daha möhkəm tellərlə bağlayır və qarşılıqlı olaraq tanıdır.



D.Kaseinov və N.Gül TÜRKSOY-un həyata keçirdiyi layihələrin əhəmiyyətindən, qarşıda duran vəzifələrdən bəhs etmişlər. Qeyd olunmuşdur ki, türk dünyasının parlaq ədəbi simalarından olan Molla Pənah Vaqifin yaradıcılığına və şəxsiyyətinə göstərilən diqqət bütün türkdilli ədiblərə olan qayğının tərkib hissəsi və davamıdır. Onun yaradıcılığı təkcə Azərbaycan xalqının yox, bütün türk dünyasının ədəbiyyat xəzinəsi üçün tükənməz sərvətdir.

Mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev, Azərbaycanın Ankaradakı səfiri Faiq Bağırov ölkəmizdə M.P.Vaqif yaradıcılığına və şəxsiyyətinə həmişə böyük ehtiram göstərildiyini ifadə etmişlər. Diqqətə çatdırılmışdır ki, 1982-ci il yanvarın 14-də ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində şairin məzarı üzərində məqbərə ucaldılmışdır. Təəssüflə qeyd olunmuşdur ki, 1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri tərəfindən işğal olunan Şuşada bütün maddi-mədəniyyət abidələri, o cümlədən Vaqifin məzarı və məqbərəsi amansızcasına dağıdılmışdır.

Vaqifin yaradıcılığının həmişə böyük məhəbbətlə sevildiyini diqqətə çatdıran Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti G.Əfəndiyeva bildirmişdir ki, onun yaradıcılığı təkcə Azərbaycanın deyil, bütün türk dünyasının ortaq sərvətidir. Prezident İlham Əliyevin Molla Pənah Vaqifin 300 illik yubileyi barədə məlum Sərəncamı böyük şairin şəxsiyyətinə göstərilən ehtiramdır. Azərbaycanın təşəbbüsü, Türkiyə və Qazaxıstanın dəstəyi ilə Molla Pənah Vaqif UNESCO-nun “2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramına” daxil edilməsi onun yaradıcılığına verilən yüksək qiymətdir. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da türk dünyasının görkəmli şəxsiyyətlərinin, o cümlədən Vaqifin bədii irsinin qorunması və inkişafı istiqamətində əməli addımlar atmağı qarşısına məqsəd qoymuşdur.

Açılışdan sonra Molla Pənah Vaqifin həyat və yaradıcılığını əks etdirən film nümayiş olunmuşdur.

Professor Ahmed Bican Ercilasunun sədrliyi ilə panel keçirilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov, Avrasiya Yazıçılar Birliyinin sədr müavini, şair Ali Akbaş, Qazaxıstanın TÜRKSOY-dakı rəsmi təmsilçisi, dosent Askar Turganbayev və dosent Yıldız İsmayilova Molla Pənah Vaqif yaradıcılığının ayrı-ayrı istiqamətləri barədə fikirlərini bölüşmüşlər.

Molla Pənah Vaqif yaradıcılığının ayrı-ayrı istiqamətlərindən bəhs edən akademik İsa Həbibbəyli və professor Kərim Tahirov bildirmişlər ki, Vaqif poeziyası tarixə, köklərə, mənəvi dəyərlərə bağlılığı, xalq ruhunu ifadə etməklə, eləcə də Azərbaycan dilini yad təsirlərdən qorumaqla həyata vəsiqə qazanmış ədəbiyyat incisidir. AMEA-da və Azərbaycan milli kitabxanasında Vaqif yaradıcılığını əhatə edən zəngin kitab fondu mövcuddur. Bu əsərləri türk dünyasında tanıtmaq, eləcə də dünya ədəbiyyatı sırasına daxil etmək qarşıda duran mühüm vəzifələrdəndir.

İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktrisası Zülfiyyə İsmayılova Vaqifin şeirlərini oxumuşdur.

Sonra türkiyəli aşıq Selahettin Dündar sazda ifa ilə Vaqifin şeirlərindən parçalar səsləndirmişdir.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Milli Elmlər Akademiyası adından TÜRKSOY-a rəsm tablosu və dəyərli kitablar hədiyyə olunmuşdur.

“Molla Pənah Vaqif ili”nin ikinci toplantısı martın 3-də Türkiyənin Sakarya şəhərində keçirilmişdir.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri**



## Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi münasibətilə kitab çap olunmuşdur

Azərbaycan Prezidentinin “Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında” 12 yanvar 2017-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyi tərəfindən “Molla Pənah Vaqif” adlı kitab nəşr olunmuşdur.

AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərovun müəllifi olduğu kitabda dahi söz ustasının həyat yolundan söhbət açılır, ədibin yaradıcılığı geniş aspektdə təhlil edilir. Vaqifşünaslığın zəngin ənənələrinə əsaslanan əsər, eyni zamanda, bir sıra yeni ideyaları ilə seçilir. İngilis dilində xülasənin daxil edildiyi kitab “Renessans-A” nəşriyyat evində yüksək poliqrafik keyfiyyətlə çap olunmuşdur.

Sentyabrın 28-30-da Bakıda baş tutacaq V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində “Molla Pənah Vaqif” kitabının geniş təqdimatı keçiriləcəkdir.

Kitab Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində olan kütləvi kitabxanalara və digər aidiyyəti qurumlara paylanılacaqdır.

**AZƏRTAC**

## M.P.VAQİF AZƏRBAYCAN MƏDƏNİYYƏTİ TARİXİNDƏ

**Səsləndirilmiş əsərləri**
”Görmədim” - səsləndirən: Nurəddin Mehdixanlı

**Şeirlərinə mahnılar**
Rəşid Behbudov - Heyran olmuşam - musiqi: Əşrəf Abbasov
Yalçın Rzazadə - Durnalar - musiqi: Cahangir Cahangirov
Brilliant Dadaşova - Toy adamları - musiqi: Vüqar Şirinov
Rahilə Həsənova - Sonalar kimi - musiqi: Qəmbər Hüseynli
Ehtiram Hüseynov - Tel nazik - musiqi: Qəmbər Hüseynli
Güllü Muradova - Təsnif

**İthaf edilmiş əsərlər**
Səməd Vurğun - ”Vaqif” dramı
Ramiz Mustafayev - ”Vaqif” operası

**Filmoqrafiya**
1. Vaqif (film, 1968)
2. Molla Pənah Vaqif (film, 1990)
3. Qətl günü (film, 1990)
4. Molla Pənah Vaqif (film, 2011)

# Molla Pənah Vaqif milli ənənələri ilə seçilən ədəbi məktəb yaradıb

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ”Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında” 2017-ci il 12 yanvar tarixli Sərəncamında deyilir: ”Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir”.**

Molla Pənah Vaqif Şərq şeirinin bütün vəznlərini yaxşı bilən, doğma dilində, xalqının ruhunu və zövqünü oxşaya biləcək səpkidə yazıb-yaratmağı üstün tutan bir şair olub. Onun xalq dilindən gələn təbii, səmimi ifadələri oxucunu məftun edir. Firidun bəy Köçərli Vaqifin xalq ədəbiyyatı ruhunda yazdığı əsərlərinin ”...həqiqi həyatdan nəşət etdiyini” söyləyir, Vaqifi həyatı doğru təsvir edən bir realist kimi müasirlərinə nümunə göstərirdi: ”Yüz sənə bundan irəli ata-babalarımızın dolanacağını, ədəb və əxlaqını, libas və təamlarını, arzu və təmənnalarını, fikir və xəyalatını və bilcümlə o əsrin övza (vəziyyət) və dəstgahını Vaqif... gözəl əşar (şeir) və kəlami-abidar (xoşagələn) ilə yazıb gələcək nəsil üçün unudulmayan bir əlamət və yadigar qoymuşdur”. Vaqifin sadə, anlaşıqlı dilindən Səməd Vurğun da ”Öz xalqının böyük oğlu” adlı məqaləsində bəhs edərək yazır ki, ”Vaqifdəki gözəl, dərin lirizm, sadəlik və xəlqilik, həm də şairlərimiz üçün ən böyük poetik məktəbdir”.

Molla Pənah Vaqif Azərbaycan pedaqoji fikir tarixində məhəbbət, gözəllik lirikasının yaradıcısı və misilsiz ustadı kimi şöhrət qazanmışdır. Onun yaradıcılığı bütün bədii keyfiyyətləri və xüsusiyyətləri ilə dərin ictimai mənaya malikdir, vətəndaşlıq duyğuları ilə cilalanmışdır. Yenə də Səməd Vurğunun təbiri ilə desək, Vaqif yaradıcılığı ictimai təfəkkürümüzün və poeziyamızın inkişafı tarixində tamamilə yeni bir mərhələ olmuşdur.

Məlum bir həqiqətdir ki, Molla Pənah Vaqif öz dövrünün görkəmli şairi - lirik sənətkarı olmaqla yanaşı, həm də təcrübəli siyasi xadim, elmə, təhsilə xüsusi əhəmiyyət verən maarifçi idi. Şair elmin, təhsilin əhəmiyyətini özünün əməli işində və ictimai-siyasi fəaliyyətində dönmədən nümayiş etdirmiş, gəncləri oxumağa, elmin dərinliklərinə baş vurmağa həvəsləndirmişdir. Doğrudur, müəllifin şeirlərində bilavasitə məktəbə, təhsilə və elmə çağıran motivlər hiss edilməyəcək dərəcədə zəifdir; bununla belə, şairin keşməkeşli, ziddiyyətli, böhranlarla dolu həyat yolunda və əməli yaradıcılıq fəa-



liyyətində əxlaqi-tərbiyəvi işlərə böyük diqqət yetirməsi, yeri düşdükcə şeirlərində tərbiyəvi-didaktik mülahizələrə geniş yer verməsi Vaqifi fəal bir maarif xadimi, pedaqoq kimi də tanıtmışdır.

Çox maraqlıdır ki, tərbiyə, əxlaq, etika və sair pedaqoji prinsiplərlə əlaqədar fikirlər, şairin estetik baxışlarında gözəllik anlayışını tamamlayan, bu anlayışın məzmununa yeni cizgilər gətirən mühüm müddəalar kimi daxil olmuşdur.

Etika və ədəb qaydalarından danışarkən şair çox incə mətləblərə toxunub. O, təlim-tərbiyə, əxlaqi saflıq və xarakterin möhkəmliyi kimi etik məsələləri izah edərkən bir mühüm, düşündürücü həqiqəti də geniş şərh edib. Bu da sevgidə sədaqət, azad məhəbbət ideyası yolunda hər növ cəfaya dözmək, ilqar saflığı və əhdə dönük olmamaq kimi yüksək əxlaqi-estetik prinsiplərin ardıcıllıqla müdafiəsindən ibarət idi. Şair belə bir işıqlı, təmiz qayəni təlim edirdi: sevgi, eşq, gözəllik o zaman birləşə bilər ki, sevgililər arasında düz ilqar, təmiz, aydın və nurlu bir əlaqə yaransın. Gözəllik azad və ülvi bir məhəbbətə layiq keyfiyyətdir, elə bir keyfiyyətdir ki, yalnız mənəvi-əxlaqi saflığı etibarilə yüksək olanlar bu keyfiyyəti yaşada bilər:

*Yasəmən tellərin, nərgiz gözlərin*
*Mənimlə, gözəlim çoxdan yağıdır.*
*İnsaf et, öldürmə, günahsız qulu*
*Əl-əldən üzülür, yaman çağıdır.*
*Kamalın gözəldə xəti kəm gərək,*
*Sevgi gərək, söhbət gərək, dəm gərək.*
*Aşiqə vəfalı bir həmdəm gərək,*
*Həmdəmsiz bal yesə, ona acıdır.*

Molla Pənah Vaqif mənsub olduğu xalqın, doğma yurdunun gənclərini, ayıq, huşyar cavanlarını elmə-maarifə yiyələnmiş, açıqgözlü, mədəni bir nəsil kimi görmək istəyirdi. Onun poeziya yaradıcılığında estetik gözəlliyin əsasında şairin tərbiyəvi-əxlaqi qayəsinin, etikaya dair müddəalarının geniş şərhi dayanmışdır. Şair cismən və ruhən gözəl, azad və təmiz gəncliyi ağıllı, nəcib, həyat mübarizəsinə hazır, sevgidə, dostluqda möhkəm, yüksək əqidəli insanlar kimi görmək, tanımaq və tərənnüm etmək idealları ilə yaşayırdı.

Qeyd etdiyimiz kimi, Vaqif poeziyasında həyata bağlılıq və nikbinlik ideyası artıq tamamilə vətəndaşlıq hüququ qazanır və dərin ictimai, əxlaqi məzmun kəsb edir. Bu nikbinliyin və həyat eşqinin arxasında duran müsbət ideal dinin, tərki-dünyalıq meyillərinin çox qüvvətli olduğu XVIII əsrin şəraitində böyük mütərəqqi əhəmiyyətə malik idi. Dünyəvi hisslərin coşqun təbliğatçısı olan Molla Pənah Vaqifin lirik qəhrəmanı şəxsiyyət etibarilə də bir çox cəhətdən nəzər-diqqəti cəlb edir:

*Aşinalıq hər gülən gül üzdə sanmaqdır əbəs,*
*Hər nigari-gərm üçün odlara yanmaqdır əbəs,*
*Halını bilmədiyin yara inanmaqdır əbəs,*
*Vaqifa, əvvəl sevib, sonra usanmaqdır əbəs,*
*Sevgili yarı sevən kəs, hər zaman sevmək gərək!*

Vaqif öz yaradıcılığı ilə ədəbi-pedaqoji fikrin inkişafında yeni bir dövr açmış, öz sələflərindən öyrənmiş olsa da, onların görə bilmədiyi son dərəcə mühüm bir işi görmüşdür. O da bundan ibarətdir ki, Vaqif ədəbiyyatı milli həyata, milli məişətə, milli xarakterə doğru yönəltmiş, realist bədii təfəkkürə getdikcə genişlənən və dərinləşən daimi bir cığır açmışdır. Onun şeirlərinin mövzusu da, forması da, üslubu da yuxarıda qeyd etdiyimiz kimi, xalqın həyatından, məişətindən, milli keyfiyyətlərindən doğmuşdur. Vaqif tam mənası ilə milli bir şairdir. Vaqifə qədər heç bir Azərbaycan şairinin əsərlərində milli həyatımız bu qədər dolğun, səmimi və təbii bir şəkildə təsvir edilməmişdir.

Bu il ölkəmizdə görkəmli Azərbaycan şairinin 300 illik yubileyi geniş qeyd olunur. Ali Baş Komandana, qüdrətli Milli Ordumuza güvənərək deyirik ki, Vaqifin növbəti yubileylərini doğma elində, Azərbaycanın dilbər guşəsi sayılan Qarabağda qeyd edəcəyimiz gün uzaqda deyil.

**Kamal CAMALOV**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**İTMİŞDİR**

**Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 15 saylı Ərazi İdarəsi tərəfindən 24.01.2014-cü il tarixdə Hüseynov Fazil Səməd oğlunun adına verilmiş reyestr nömrəsi 501013005247-10301, inventar nömrəsi 501-1/4136 olan fərdi yaşayış evinə aid ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AIIB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 1347

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib.
Foto: Mehman Vələdov.